# İslam dünyasında qəbilə mədəniyyəti altında əzilən qadın




Qəbilə ənənəsi Yaxın Şərq mədəniyyətlərinin yüzlərlə, hətta minlərlə illik ictimai quruluş və mədəniyyətinin əsasını təşkil edir. Bu gün Şimali Afrika, ərəb dünyası və Orta Asiya cəmiyyətləri nə qədər müasir dövlət statusuna keçsələr də qəbilə məntiqi heç vaxt tərk edilməmiş, yalnız forma dəyişdirmişdir.

Dövrümüzdə bir çox Şərq ölkəsində nəsildən-nəslə ailədaxili hökmdarlıqlar, bu ailələrin mənsub olduqları qəbilə və tayfaların gücü ilə hakimiyyətlərini qoruyur. Bu səbəbdən qəbilə məntiqini təkcə keçmiş feodal dövrlərə xas tarixi mövzu kimi qiymətləndirmək çox yanlış olar. ABŞ-ın Müdafiə Nazirliyindən tədqiqatçı-yazar Rik Doksey (Rick Docksai) bu həqiqətə belə diqqət çəkir:

"Qəbilə məntiqinin geniş yayıldığı Yəmən, Əfqanıstan və Liviya cəmiyyətləri klan hakimiyyətlərinin açıq və konkret nümunələridir. Pakistan, Keniya və Cənubi Sudan kimi

digər ölkələrdə isə qəbilələr sonu gəlməyən tələb çəkişmələrində mərkəzi rəhbərliklə yarışırlar".[i]

Əsrlərdir qəbilə mədəniyyətinə xas dəyər mühakimələri, əxlaq normaları, adət və ənənələrlə yoğrulmuş Yaxın Şərq cəmiyyətində fərdlərin status, mənsubiyyət, əhəmiyyət və iyerarxiyaları də yenə bu mədəniyyət çərçivəsində müəyyən olunur. Doksey bu vəziyyəti belə təsvir edir:

"Əslində qəbilələr daxilindəki mənsubiyyət ərəb dünyasında hələ də arxa planda güclü bir amil kimi varlığını qoruyur və bu vəziyyət Yaxın Şərq cəmiyyətlərində fərdi azadlığın inkişafında güclü əngəl olacaq". [ii]

Qəbilə mədəniyyətinin yanlış dəyər mühakimələrindən ən çox zərər görən təbəqə həqiqətən qadınlardır. Müxtəlif İslam cəmiyyətlərində qızlar və qadınlar "namus qoruma" adı altında ailələri tərəfindən cinsi istismara, istəmədikləri insanlarla evlənməyə məcbur edilir, ərlərinin köləsinə çevrilərək onlardan icazəsiz nəinki səyahətə, alış-verişə belə çıxa bilmir, hər cür zorakılığa məruz qalır. Nəqliyyat vasitəsindən istifadə edə bilmir, seçmək və seçilmək hüququna malik ola bilmir, təhsildən, iqtisadi həyatdan uzaq tutulur.

Bunlar təkcə qəbilə mədəniyyətindəki kişilərin hakim olduğu mentalitetin fayda və maraqlarını güdmək, onların kompleks və qısqanclıq meyillərini yatışdırmaq məqsədilə ortaya atılmış uydurma qaydalardır. Bu cəfəngiyyatlar zaman keçdikcə ictimai və dini qaydalara, hətta dövlət qanunlarına çevrilib.

Təəssüf ki, bu gün geniş miqyasda İslam dünyasını bu primitiv və vəhşi mentalitet təmsil edir. Bu mentalitetin ortaya qoyduğu çirkin mənzərə də böyük haqsızlıq olaraq İslama və Qurana aid edilir. İslam aləmini əhatə edən bu utanc mənzərəsi 2016-cı ilin ən yaxşı qısametrajlı sənədli filmi üzrə Oskar mükafatına layiq görülən "A Girl in the River" adlı filmlə bir daha dünya gündəminə gəldi.

Sənədli filmdə hər il 1000-dən çox namus cinayətinin baş verdiyi və çoxunun cəzasız qaldığı Pakistanda yaşayan Saba Qaiserin gerçək həyat hekayəsindən bəhs edilir. Ailəsinin istəmədiyi bir insanla ailə quran Saba atası və əmisi tərəfindən danışmaq bəhanəsi ilə avtomobilə mindirilib əvvəl döyülür, sonra başından güllələnərək çaya atılır. Ancaq möcüzəvi şəkildə xilas olaraq həyata qayıdır. [iii]

Hər 90 dəqiqədən bir namus cinayətinin baş verdiyi İslam ölkələrində din adına namus qoruyuculuğu edənlərin İslamın ən böyük haramlarından biri olan adam öldürmək cinayətini tərəddüdsüz həyata keçirmələri Allah qorxusundan uzaq instinktiv qəbilə məntiqinin qəribə ziddiyyətlərindəndir. Quranda buna müvafiq heç bir müddəa olmadığı, hətta tam əksinə, müşriklərə aid bir əməl olaraq bildirildiyi halda (Hud surəsi, 91), insanları cəzalandırmaq üçün İslam adı altında daş ataraq öldürmə vəhşiliyi də oxşar ziddiyyətlərdən biridir.

Dünya İqtisadi Forumunun hər il təzələdiyi "The Global Gender Gap Report"da qadın-kişi bərabərsizliyinin dərəcələri ölkələrə görə statistik olaraq hesablanır. Hesablama təhsil almaq, səhiyyə, iqtisadiyyatda iştirak və siyasi təmsil gücü olaraq dörd əsas meyar üzrə aparılır. Bu hesablama nəticəsində ölkələr qadın-kişi bərabərliyinə verdikləri əhəmiyyət baxımından siyahı şəklində sıralanır.

2015-ci ilin hesabatında 145 ölkəlik siyahının ilk 100-nün içində yalnız bir neçə müsəlman ölkəsi olduğu halda, 100-cü sıradan sonrakı ölkələrin böyük əksəriyyətini İslam ölkələri təşkil edir. Düşündürücü olan isə siyahının ən sonundakı 15 ölkənin (ikisi xaric olmaqla) hamısının müsəlman ölkələr olmasıdır. Qadın ayrı-seçkiliyinin ən yüksək səviyyədə olduğu bu ölkələr sondan əvvələ doğru Yəmən, Pakistan, Suriya, İran, İordaniya, Mərakeş, Livan, Mali, Misir, Oman, Səudiyyə Ərəbistanı, Mavritaniya və Türkiyə... [iv]

Bu gün ildə 1 milyon qız uşağının anadan olan kimi qətl edildiyi Çin və hər 20 dəqiqədə bir qadının təcavüzə məruz qaldığı Hindistan belə siyahıda daha üst sıralarda yer alır.

Keçmiş Pakistan Baş nazirinin köməkçisi Şahid Zülfikar əl Buhutto (Shaheed Zulfikar Əli Buhutto), Elm və Texnologiya İnstitutunun rəhbəri Şahnaz Vəzir Əli (Shahnaz Wazir Ali) İslam dünyasındakı qadınların acınacaqlı halını belə təsvir edir:

"Əksəriyyəti kasıb və təcrid olunmuşdur, normal qidalanmır və hüquqlarından məhrum edilmişdir. 30-40%-i gündəlik həyatını davam etdirə bilmək üçün mübarizə aparır. Bir çox qadın bütün həyatını kiçik kəndlərdə keçirir. 13 yaşında evlənir və 30 yaşına gəldikdə 60 yaşında görünür. Bu qadınlar Quranı, bəlkə də heç bir kitabı oxumur. Əzbərdən bildikləri ilə ibadət edir. Qadınların oxuma-yazma nisbəti kişilərin üçdə ikisindən azdır ". [v]

Qadının müasir həyatdan bu dərəcədə təcrid olunması Yaxın Şərq və İslam dünyasının bugünkü geridəqalmışlığının, inkişaf və məhsuldarlığa qapalı olmasının ən əsas səbəblərindəndir. İslam aləminin və müsəlman qadının xilası üçün yeganə həll yolu Quranda *"nəsil qoruyuculuğu"*, *"ataların dini"* kimi anlayışlarla diqqət çəkilən qəbilə mədəniyyətinin ibtidai, vəhşi, mühafizəkar və qaranlıq halından çıxaraq bu mədəniyyətin *"zəncirlərini qıran və ağır yüklərini buraxan"* Quranın əslinə qayıtmaqdır. Bu zehniyyət dəyişikliyi təmin edilmədikcə səthi tədbir və üsullar heç vaxt həqiqi həll yolu gətirməyəcək.

[i] *Book Reviews, Mark Weiner. The Rule of the Clan: What an Ancient Form of Social Organization Reveals about the Future of Individual Freedom,* **Reviewed by:** Rick Docksai, *World Future Review*, Bethesda, MD, USA
[ii] *Book Reviews, Mark Weiner. The Rule of the Clan: What an Ancient Form of Social Organization Reveals about the Future of Individual Freedom,* **Reviewed by:** Rick Docksai, *World Future Review*, Bethesda, MD, USA
[iii] http://www.nytimes.com/2016/01/31/opinion/sunday/her-father-shot-her-in-the-head-as-an-honor-killing.html?_r=1
[iv] http://www3.weforum.org/docs/GGGR2015/cover.pdf
[v] ***Woman, Man, and God in Modern Islam", ****Theodore Friend, Published 2012 by Wm. B. Eerdmans Publishing Co.*

Adnan Oktarın « The Jakarta Post& The Hans India»da dərc olunan məqaləsi:

http://www.thejakartapost.com/news/2016/03/11/how-tribal-culture-crushes-women-islamic-world.html

http://www.thehansindia.com/posts/index/News-Analysis/2016-03-22/How-tribal-culture-crushes-women-in-Islamic-world/215449

THE HANS INDIA

LATEST NEWS | TOP STORIES | TRENDING NOW

HOME AP TELANGANA NATION NRI WORLD BUSINESS CINEMA SPORTS CRIME

Home / News Analysis

# How tribal culture crushes women in Islamic world

THE HANS INDIA | Mar 22,2016 , 10:39 AM IST

A A A




Tribal culture has been central to the fabric of the Middle Eastern civilizations for centuries, if not for thousands of years. Although many North African, Arabian and Central Asian societies seem to have adopted modern states, the mentality of tribalism has never been truly abolished and it continues to profoundly affect daily life.

The ruling classes of many Middle Eastern countries today are usually under the control of certain tribal families, kept largely in place with the support of their tribes and clans.

Therefore, it would be a grave mistake to consider tribalism as a thing of the past solely particular to feudalism.

https://www.harunyahya.info/az/meqaleler/islam-dunyasinda-qebile-medeniyyeti-altinda-ezilen-qadin-69605